Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Sözün-sənətin təşnəsi –Kürdoğlu

Şair Hüseyn Kürdoğlunun 90 illik yubileyi  illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı - 2024

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Sözün-sənətin təşnəsi – Kürdoğlu -** Şair Hüseyn Kürdoğlunun 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. - 38 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

# Giriş

*Neçə min ildirsə xalqımın yaşı,*
*O qədər zamanın vətəndaşıyam.*
*Göy yaylağım oldu dağların başı,*
*Şorvanın, Muğamın vətəndaşıyam.*

Ədəbiyyat həyat fəlsəfəsinin, ilahi və insani duyğuların cəmləşdiyi məkandır. İnsan özünün, dünya və ilahi varlığın dərkini burada anlayır. Ədəbiyyat sahilsiz, sərhədsiz elmdir. Onun dərinliyinə vardıqca əzəmətini dərk edirik. Hər kəsi öz ağuşuna alaraq, çox az adamı buradan kamil çıxarır. Bədii aləm insan ömrünü uzadan, sağlam edən ilahi nemətdir. Bədii ədəbiyyatla tanış olmayan, oxuyub sevməyən insan kasıb və məğlubdur. O ürəkdən gələn elmdir. Ürəklə qidalanır və oradan bulaq kimi süzülür. Bədii aləm ürəklə yaşayır, dayanması ilə də sona yetir. Küləyin səsini, suyun şırıltısını, ildırımın çaxmasını və s. təbiət gözəlliklərini bizə sevdirən ədəbiyyatdır.

Şairlik bir başqa aləmdir. Sonu bilinməyən ümmandır. Daxilində böyük söz xəzinəsi olan insandır. Şairlərə İlahidən bir qüvvə verilir. Bu qüvvə onlara ilham, həvəs verərək ümidlər yaradır. Şair olmaq asan deyil. Bu sənət böyük sənətdir. Hər insan şair ola bilməz. Mən bir oxucu kimi, şairləri sonsuz bir çoxluq kimi görürəm. Hansı ki, o çoxluq tükənmir. Şairdə də bunu belə təsəvvür edirəm. Onlar yazdıqca yaradırlar. Şairi böyük bir rəssama bənzəyir. Rəssam hansısa bir gözəlliyi görür və onu cansız təsvir edir. Şair gözəlliyi görür və onu sözlə canlandırır. Gözlə görünən gözəllik daha ifadəli olur, daha cəlbedici xarakter daşıyır. Çünki onu bir şair canlandırır. Biz düşünürük, amma heç nəyi qələmə almırıq. Ancaq şair düşünür və bunu qələmə alır. Şairi bir müəllimə də bənzəyir. Çünki qarşısındakı şagirdi, tələbəni müəllimdən daha yaxşı heç kim tanıya bilməz. Şairlikdə belədir. Əgər insanda şairlik ruhu varsa, ətraf mühiti ondan

yaxşı heç kim dərk edib qələmə ala bilməz. Onun daxilini, xaricini yalnız şair ruhu canlandıra bilər.

Poeziya insanı, təbiəti, aləmi insana sevdirən ədəbiyyatın tərkib hissəsidir. Bu sevgi hardan qaynaqlanır? Poeziya öz qüdrətini torpaqdan, qandanmı alır? Bu suallar hələ də mübahizə obyektidir. Danılmaz həqiqətdir ki, dağlar, qayalar, çaylar və s. təbiət gözəllikləri poeziyanın yaranma mənbəyidir. Bunlar şairə ilham verir. Suyun səsi, güllərin xoş ətri, dağların uca zirvəsi və s. kimi duyğular insanı yazmağa səsləyir.

Ayla gecə, Günəşlə gündüz, bülbüllə gül qovuşduğu kimi, söz də öz qiymətinə ədəbiyyatda qovuşur. Ana ilə balanı, gecə ilə gündüzü, yerlə göyü ayırmaq mümkün olmadığı kimi, sözü də ədəbiyyatdan ayırmaq olmaz. Çünki ədəbiyyat söz üzərində bərqərar olub. Qiymətli söz, yazarı əbədiləşdirir. Bu isə hər yazara qismət olmur.

-Göylərdə ulduzların sayı bilinmədiyi kimi, xalqımızın yetirdiyi şairlərin sayı da bilinmir. Hər bölgəmizdə, rayonumuzda, kəndimizdə ürəyi sözlə dolu neçə-neçə şair var. Tarix bizə şairə dünyasını dəyişdikdən sonra qiymət verməyi tövsiyə edir. Azərbaycanımızın dilbər guşələrinin birində Laçında doğulub yaşayıb yaradan Hüseyn Kürdoğlu da Azərbaycan müasir ədəbiyyatına dərin iz qoyan şairlərimizdəndir.

Hüseyn Kürdoğlu müasir Azərbaycan poeziyasının bütün şəkillərində yazıb-yaratmışdır: hecada da, əruzda da. Yüzlərlə şeir, poema, qəzəl, qoşma, bayatı nəşr etdirmişdir. Hər biri də uğurludur.

Soyunu bada verməz,
Şöhrətə, ada verməz,
Başını verər Kərkük,
Dilini yada verməz.

Sevilən şairimiz Hüseyn Kürdoğlunun bu il 90 illik yubileyi tamam olur. Bu münasibətlə hazırladığımız vəsait iki hissədən ibarətdir. I hissə *"Kitaba dönmüşəm"* adlanır. Vəsaitdə dahi mütəfəkkirin həyat və yaradıcılığından bəhs edilir. *"Kürdoğlunun söz dünyası"* adlanan II hissədə isə *"Həkəridən yol alan şair-Kürdoğlu"* adlanır və onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

Qocaldım, o söz də o saz da getdi,
Axdı Kürdə getdi, Arazda getdi.
Palaza büründüm, elnən sürünəm,
Çaldılar əlimdən, palaz da getdi.

Hüseyn Kürdoğlu 1934-cü il iyunun 15-də Azərbaycanın Laçın rayonunun Əhmədli (Mollaməhmədi) kəndində anadan olmuşdur. Orta təhsilini Əhmədli kənd yeddiillik, Ağdam şəhər 1 saylı orta, Laçın şəhər orta və Qubadlı rayonu Xanlıq kənd məktəblərində alıb ADU-nun filologiya fakültəsinə daxil olmuşdur (1953–1958). Əmək fəaliyyətinə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində ədəbi dram şöbəsinin redaktoru kimi başlamışdır. Sonra Azərbaycan EA Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsində işləmişdir (1960). "Müasir kürd şairi A. Qoranın poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1966). Şərqşünaslıq İnstitutunun "İran ədəbiyyatı" şöbəsində böyük elmi işçi vəzifəsində çalışmışdır (1968–1993). Ömrünün sonunadək Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda işləmişdir (1993-cü ildən). Ədəbi yaradıcılığa erkən başlamış, ilk şeirlərini hələ orta məktəbin beşinci sinfində ikən Laçın rayonunda çıxan "Sovet Kürdüstanı" qəzetində çap etdirmişdir. Onun "Gözəldir" rədifli ilk qoşması 1950-ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunandan sonra dövri mətbuatda müntəzəm çıxış etməyə başlamışdır. Bədii tərcümə ilə də məşğul olmuşdur.

Azərbaycandə rəsmi fəaliyyət göstərən "Ronahi" Kürd Mədəniyyət Mərkəzinin (1990) və Mərkəzin mətbu orqanı olan "Denge Kurd" ("Kürdün Səsi", 1992) qəzetinin təsisçilərindən biri olmuşdur. "Ronahi"-nin mədəni fəaliyyətində iştirak etmiş, "Denge Kurd" qəzetinin fəal əməkdaşı olmuşdur.
2003-cü il iyulun 12-də Bakıda vəfat etmiş, Xırdalan qəbristanlığında dəfn edilmişdir.

Hüseyn Kürdoğlunun 90 illik yubileyi münasibətilə kitabxanada konfrans, kitab müzakirəsi, dəyirmi masa, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairin, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitab sərgisinin də keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Laçın həsrətli şair", Şair Hüseyn Kürdoğlunun poeziyasında təbiət", "Türk oğlu türk Kürdoğlu", "Daşı daş biləni bir naşı gördüm, Hər daşı qəlbimin sirdaşı gördüm", "Sözü Həkəriyə tökülən şair", "Hər yaşarı ağrının bir kamil ustadı var", "Dəlidağdan Arazacan yol gedər", "Xalq ruhunun tərcumanı–Kürdoğlu" və s. verilə bilər.

Şairin müxtəlif illərdə çəkilmiş foto stendi ilə yanaşı, Balaş Azəroğlunun kitabları və bir çox şairlərin Hüseyn Kürdoğlu haqqında dövri mətbuatda yazılan materiallar sərgidə öz yerini ala bilər. Görkəmli insanların şair haqqında söylədikləri fikirlərin və şeir parçalarının da oxuculara çatdırılması da əhəməyyətli olar.

Dahi mütəfəkkür Kürdoğlunun yubileyi ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bu tədbirlərdən biri də şagirdlər arasında keçirilən **"oxucularla söhbət"** dir və söhbət *"Haqq aşığı - Hüseyn Kürdoğlu"* adlanır. Oxucularla söhbət zamanı Hüseyn Kürdoğlunun əsərlərində vətənpərvərlik, elm, maarif, türkçülük və məktəb, teatr məsələlərinə münasibət müzakirə olunur. İlk olaraq kitabxanaçı qonaqlara və

iştirakçılara dahi mütəfəkkir şairin həyat və yaradıcılığından bəhs edir:

*Kitabxanaçı:* Bu gün Ustad sənin sorağına, ziyarətinə gəlmişik. Həkərinin sol yaxasına — Yaxşının qarşı sahildəki əbədiyyət evinə — sənin qibləgahına boylanırıq. Yox, tək boylanmırıq, səninlə birgə boylanırıq. Sanıram ki, sinədaşındakı saz dilə gəlib od saçır, əsrlər boyu sönməmiş və heç zaman sönməyəcək ülvi bir sevdanın həzin hekayətini dağlara, qayalara, ağ dalğalı büllur Həkəriyə, pıçıltılı bulaqlara söyləyir, Aya-günə, ulduzlara danışır, zaman-zaman bütün dünyaya bəyan edir. Yamyaşıl bağlara bürünmüş gözəl dağlar qoynundakı yurdun bir daha sənin adınla şöhrətləndi, qəlbində şeirlərin şölələnən minlərlə, yüz minlərlə dili diləkli insanlar Kürdoğlu deyə səni sevdi, sazın-sözün ülviyyətinə sığındı, sənətin dirilik bulağına yetişdi. İgid elimiz-obamız sən yatan torpağı — Kürdoğlu torpağını, göy göyərçinlərin yuvasını sinəsiylə qoruyacaq. Mən buna inanıram! Sənin ölməz ruhun da göy göyərçinlərə qoşulub yollar üstə qonur, sərhəd məntəqələrinə gedən igidlərə xeyir-dua verir:

Yurdumuzun, ulu diyarımızın şeir sevənləri, sözə vurğun, sözə sevdalı xalqı səni minnətdarlıqla xatırlayır, xatırlayacaq.

Böyük şair Hüseyn Kürdoğlunun yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Şair Hüseyn Kürdoğlunun poeziyasında təbiət"* adlı **"dəyirmi masadır"** dır. Dəyirmi masa yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasdında keçirilə bilər. Tədbirdə ədəbiyyat müəllimləri, Hüseyn Kürdoğlunun yaradıcılığı ilə yaxından tanış olan tədqiqatçılar, alimlər və dramaturqun yaradıcılığını sevən oxucular dəvət olunur. Kitabxanaçı dəyirmi masa keçirərkən oxuculara dahi mütəfəkkür şairin özü və əsərləri haqqında məlumat verir:

*Kitabxanaçı:* Hüseyn Kürdoğlu Laçın rayonunun ən səfalı guşələrindən olan Əhmədli kəndində anadan olmuşdur. Hüseynin uşaqlıq həyatı ecazkar dağ təbiətinin qoynunda keçmişdir. Doğma kəndinin əfsanəvi gözəllikləri, zərif saz havaları, özünün tütəkdə çaldığı yanıqlı el havaları balaca Hüseynin həssas qəlbində dərin izlər buraxmışdır. Məktəbdə oxuyan vaxtlarda uşaqlıq həyatı haqqında belə demişdir:
Dağların, yaylaqların, çayların, şəlalənin, buz bulaqların bizi əhatə edən aləmin qədrin biləsən, onu sevəsən ki, ondan da ilham ala biləsən. Onda rahat nəfəs alarsan, onda dinc, rahat yaşaya bilərsən, yazıb-yarada bilərsən.

Elə bil göylərin yeddi qatından,
Şığıyıb enirsən çaya, şəlalə!
Öpüşür suların qəhqəhələri,
Çağır bu dağları toya, şəlalə!

Bir xeyir xəbərə sanki qaçırsan,
Qayanın çiynində qanad açırsan,
Gündüzlər günəşə inci qaçırsan,
Gecələr ulduza, aya, şəlalə!

Hay-haray salırsan vəcdə gələrək,
Demirsən qaya da dincəlsin gərək,
Şıltaq nəvəsini sevən baba tək,
Yorulmur, incimir qaya, şəlalə!

Xoşbəxtsən, həmdəmin, sirdaşın olsam,
Sazımı sənintək ilhamla çalsam,
Yüz illər dayanıb seyrinə dalsam,
İnanma gözlərim doya, şəlalə!

Yaxşı yadımdadır, 1970-ci il idi. "Laçın" qəzetində ayda bir dəfə şeir həvəskarları, gənc yazarlar toplaşardılar. "İşıqlı üfüqlər" ədəbi yaradıcılıq məclisinə, "şivərək", nazik boy-buxunlu, çatmaqaşlı, əsl dağ adamlarına məxsus saf

təbəssümlü bir nəfər qonaq gəlmişdi. Həmişəki kimi, şair Tapdıq Nəcib yenə gəncləri başına toplamışdı. Bu dəfə görüşə Hüseyn Kürdoğlu gəlmişdi. Tapdıq Nəcib qonaq, həmyerlimizin həyat yaradıcılığı haqqında məlumat verdi, bizləri tanış etdi. Gənclər təzə şeirləri, bədii yazılarını oxudular. Hüseyn müəllim təzə yazdığı, yeni şeirlərini də oxudu. Tanışlığımız onda yarandı. Söhbət zamanı, şeirlərini oxuyanda yenə gur saçları sanki onu fikirdən yayındırmağa çalışırdı. O, yemə əli ilə barmaqlarının arasına topladığı saçlarının ona mane olmasını aradan qaldırmağa çalışırdı. Ara-sıra saçlarına dən düşmüşdü Hüseyn müəllimin. Laçın dağlarının zirvəsində yığılıb qalan bəyaz qar sanki Hüseyn müəllimin saçlarına köçməyə hazırlaşırdı...

Bizim eldə, obada belə bir söz vardı. Hərdən onu belə də deyərdilər – kasıb, kasıb uşağa da kasıb, kasıb nəyi də olmasa, övladdan varlı olar – deyiblər. Həsən atanın, Fizzə ananın xoşbəxt bir ailəsi vardı. Bu ailədə Hüseyn, Seyfi, Sehrayə, Alışan, Sürayyə, Urşan, Şirindil dünyaya göz açmışdılar.

Hüseyn uşaq vaxtında "zirəng" olmuşdu. Hamıdan böyük idi. Əhmədli kəndi ecazkar dağ təbiətinin qoynunda keçən həyatı fəsillərin əfsanəvi gözəlliklərindən biganə qala bilməzdi. Hər bir fərdi yaşayış evinin həyətindən, torpağın dərin qatından 40-dan çox təbii su mənbəyi, buz bulaqlar fəvvarə vuraraq yerin üst qatına çıxmışdı. Hər bir evin həyətində bir təbii, müalicə əhəmiyyətli bulaq qaynayardı. Yaxınlıqdan Minkənd çayı axırdı. Min bir dərdlərin dərmanı, təbii müalicə əhəmiyyətli İstisu burada insanlara şəfa verirdi. Sanki hər bir dərədə, Abadxeyir dərəsində 40 bulaq, su mənbəyi, hər bir bulağın bir xəstəliyə dərmanı idi. Yay fəslində qonaqlı-qaralı olardı bu yerlər.

Hüseyn tələbəlik vaxtlarında, ilk günlərdən universitetdə özünü nümunəvi, əxlaqi keyfiyyətlərinə görə dərin hörmət qazanmağa başlamışdı. Yazdığı şeirləri, əziz müəllimi, şair

Səməd Vurğunu maraqlandırmağa sövq edir. Xoşuna gəldiyi üçün ona "Kürdoğlu" təxəllüsü ilə yazmağı məsləhət görür. Bir çox şeirləri dövrü mətbuatda işıq üzü görməyə başlayır. Bir sıra şeirləri almanaxlarda ardıcıl çap olunur, bəyənildiyi üçün şeirləri haqqında müsbət rəylər yazılır.

Salonun qapısı açılır bu an,
Sanki dağ zirvəli bir dağ görünür,
Talıstan cüssəli sadə bir insan,
Dalğalı saçları dümağ görünür.

İlk dəfə görürəm, dostlar, bu axşam,
Elin şair oğlu Səməd Vurğunu,
Mən bu xatirəni yaşadacağam,
Könül rübabında ömrüm uzunu.

Belə ki, Hüseyn Kürdoğlu ikinci kursda oxuyanda şeir-sənət aləminə ilk qədəm qoyanda, ilk uğurlu yol diləyən məhz əziz müəllimi, sevdiyi bir insan Səməd Vurğunun "İlk yaradıcılıq dövrü" adlı diplom işinin də, sağlığında elmi rəhbəri məhz Səməd Vurğun özü olmuşdur. "Hüseyn Kürdoğlu ömrünün sonuna kimi klassik şair Səməd Vurğunu vəsf etdi və onun poeziya məktəbinin görkəmli nümayəndəsi oldu" . (Qəzənfər Paşayev).

Azərbaycan Dövlət Radio və Televiziya Komitəsində redaktor kimi əmək fəaliyyətinə başlamışdı. Həmin ildə o, müasir həyatımızın bir sıra aktual məsələlərinə həsr etmiş maraqlı oçerklər yazmağa başlamışdır.

Hüseyn Kürdoğlu 1960-cı ildə Azərbaycan SSR Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda elmi işçi kimi əmək fəaliyyətini davam etdirməyə başlamışdır.

Nəhayət, yuxusuz gecələr, gərgin axtarışlar öz bəhrəsini verir. 1966-cı ildə Hüseyn Kürdoğlu "Abdulla Qoranın

poeziyası" mövzusunda dissertasiya müdafiə edir və ona filologiya elmlər namizədi, alimlik dərəcəsi verilir.
Əsər 1969-cu ildə Elmlər Akademiyasının nəşriyyatı tərəfindən monoqrafiya şəklində çapdan çıxmışdır.
İşıqlı dağı, Calbayır, Üç qardaş, Əlyetməz yaylaqları şair Hüseyn Kürdoğlunun ilham pərisi idi. Elə ona görə də Laçın rayon qəzetində müntəzəm çap olunan "İşıqlı üfüqlər" ədəbi yaradıcılıq məclisi də onun təşəbbüsü ilə belə adlanmışdır.
Dağların hər dərəsində, bərəsində, keçidlərinə, ormanlarında bir buz bulaq qarşına çıxır. Qarşına çıxan hər bulaqdan su içməsən ürəyində nisgil qalardı ki, görəsən, o bulaqdan su içdimmi? Əgər su içmədən keçərsənsə bulaq səndən küsər. Odur ki, gizlicə o yana-bu yana baxırsan. Dizlərini yerə qoymasan, bulağa baş əyməsən, onu öpməsən, hər bir bulağdan su içməsən, dadmasan, tamı başqa olduğunu hiss etməzsən. Onda adama başqa ləzzət verir, ürəyinin yanğısını söndürür.

Payını saxladın əziz qonağa,
Qarlı quzeylərin buzu səndədir?!
Şair qədəminə qurban kəsilən,
Boğazı qumrovlu quzu səndədir.

Atım şaha qalxır üzü yuxarı,
Qarşıda Köz suyu axır-baxır,
Karvan buludların dilsiz axarı,
Şır-şır bulaqların sazı səndədir.

Hər kəs sularından doyunca içsə,
Qocalmaz ömrünün yüz ili keçsə,
Kürdoğlu dünyada vaxtsız da köçsə,
Bu dağlar durunca sözü səndədir.

Şair sadə sözlərlə vəsf edilən bu misralarda təbiətin təsvirində, onun təbiətə vurğun olmasından, təbiəti sevməsindən, ondan zövq, ilham almasından açıq aydın dilə gətirmişdir. Bəzən fikirlərimizin daha da qüvvəli olması üçün belə ifadələrdən istifadə edirik. Göylərin yeddinci qatından enən, torpağın yeddinci qatından çıxan sözlərdən, kəlmələrdən çox vaxtlarda istifadə edirik. Bəlkə də torpağın yeddinci qatından torpağın üstünə çıxmağa can atan saf incilər, damlalar xeyli məsafələr qət edərək, yol açaraq bizə qədər gəlib çatırlar. Arxlar yaranır, daha sonra genişlənərək, özünə güc toplayaraq bulaq suları çayların əmələ gəlməsinə, qüvvəli olmasına daha da daşqın, coşqun olmasına səbəb olur.

Dəlidağdan Arazacan yol gedər,
Min şaxəli, min budaqlı Həkəri,
Vəcdə gəlir ağ günündən ellərin,
Vadiləri bağça bağlı Həkəri.

Heç görmədim sakit olub kiriyə,
Ağ ləpələr oxşar köçən sürüyə,
Çox bürünər bəyaz duman bürüyə,
Körpüləri hilal tağlı Həkəri.

Karvan çəkər dumanların içindən,
Çəmənlərin, ormanların içindən,
Axıb keçər dastanların içindən,
Tarixlərdə səs-soraqlı Həkəri.

Səslənəndə sal qaşları xışmalar,
Yarğanları qılıncıyla aşmalar,
Harayında bayatılar, qoşmalar,
Şair könlü söz bulaqlı Həkəri.

Qıjovlarda sədəf düzər saçına,
Ayı-günü qatar dalğa köçünə,
Kuzəsindən şərbət verər Laçına,
Gül fəslində gül yanaqlı Həkəri.

Nur çiləyər min arzuya, diləyə,
Dalğaları bənzər xallı lələyə,
Gedər Aran torpağına köməyə,
At səyirdən bizim dağlı Həkəri.

Sadə, ədalətli, ürəyi yumşaq olan bu cür sadə insanlar bu cür ömür yaşayırlar. Eldə, obada, cəmiyyətdə böyük hörmət və nüfuz qazanıblar, insanların qəlbində yuva salmaq üçün Ulu tanrı həmin şəxslərə məhəbbət və ilham vermişdir. Onun tutduğu bu yolda, o, həmişə xeyirxahlıq, kamillik, mənəvi yetkinlik zivəsinə çatırlar. Gənclik illərindən Laçına, onun dağ kəndlərinə, el-obasına, təbiətinə bağlı olması, pillə-pillə, addım-addım zirvələri fəth etməsi elmdə, yaradıcılığında da özünü büruzə vermişdi. Yaranan, əldə olunan nailiyyətlər məhz bununla bağlıdır.

Anamsan, dizinə baş qoydum yenə,
Şir qüvvəsi tapdı dizim, ay Laçın,
Sənin bu qıjovlu gur çaylarında,
Qızıl balıqlar tək üzüm, ay Laçın.

Coşum Dəlidağın boranı kimi,
Şeh səpim Qırxqızın dumanı kimi,
Məcnun bulağının mərcanı kimi,
Şeirimi yaxana düzüm, ay Laçın.

Hansı bir çeşmənin gözünü gördüm,
Orda bir gözəlin üzünü gördüm,

Bağrımın daş olan gözünü gördüm,
Silinməz qoynundan izim, ay Laçın.

Gəlmişəm qolumu boynuna salım,
Şirin vüsalından min ilham alım,
Verdiyin qanadla uçsun xəyalım,
Qartallı göyləri gəzim, ay Laçın.

Hoçaz qayasından hüsnünə baxdım,
Güney qarı kimi əridim, axdım,
Ulduzlar tacıdır, qayalar taxtım,
Hara dolansam da özüm, ay Laçın.

Ulu dağlarının gözəl gəlini,
Öyrədir könlümə eşqin dilini,
Verdiyin rübabın çaldım telini,
Axdı çeşmə kimi sözüm, ay Laçın.

Hüseyn Kürdoğlunun ilham mənbəyi təbiət idi. Ona görə yaranan hər bir şeir böyük məna, məzmun bəxş edir. Təhlil edirsən, düşünürsən həyati hadisələr, təbiətdə baş verən maraqlı məqamlar yada düşür, gözlərinin qarşısında canlanır. Üç, beş, bəzən də, on misrada yazılan şeirin, əsərin girişi, baş verən hadisələrin ardıcıllığı, ideyası, məqsədi, sonluğu oxucunu qane edir.

Gədikdən bir payız dumanı keçir,
Xəzan soyundurub ormanı keçir,
Bir an sakit olun, çaylar, çeşmələr,
Dağ üstdən dumanlar karvanı keçir.

Gün doğdu, tərk etdi duman bu dağı,
Nə xoşbəxt yaratmış zaman bu dağı,
El yolu dolanıb çiynindən aşır,

Heç vaxt aşa bilməz hicran bu dağı.

Gönlüm Dəlidağın divanəsidir,
Şeirim bu yerlərin əfsanəsidir,
Pərvanə çırağın aşiqidirsə,
Qartal da zirvələr pərvanəsidir.

Geyindi, bəzəndi, sonalandı yar,
Döndü bir kəkliyə, xınalandı yar,
Mənim vətənimdir, mənim torpağım,
Leylisi, Şirini can alan diyar.

Bir olsaq yolumuz dumana düşməz,
Novbahar eşqimiz xəzana düşməz,
Ağ gülə bənzəyən əlin dəyməsə,
Gönlüm xanimanı sahmana düşməz.

Hüseyn Kürdoğlunun əsərlərinin yaranması, ərsəyə gəlməsi, onun uzun müddət yuxusuz gecələrinin, geniş düşüncəsinin, ağlın, zəkasının, vətənə, insanlara olan sevgisini, məhəbbətini, təbiətə bağlı olmasını nəticəsidir. Şairin təbiətin gözəlliyini tərənnüm edən çox sayda şeirləri yaranmışdı. Belə gözəlliklərin tərənnüm olunmasının mərkəzində insanlara qarşı olan istək, məhəbbət də öz yerini müəyyən etmişdir. Ölçüsü müəyyən olunmayan təbiəti sevməsi, ona bağlılığı, məhəbbəti, sevgisi, arzusu, ilham mənbəyi olması şairlik zivəsinə qədər də gətirib çıxarmışdır. Bir o qədər coşqun, daşqın istəyini, məhəbbətin içində qovrulub, yanan, sevən şair Hüseyn Kürdoğlu heç olmasa özünə bir gün müəyyən edə bilmişdi. Gözəlliyin içinə qərq olan şair, axır ki, istəyinə, seçiminə, məqsədinə çata bilmişdi. Ömür-gün yoldaşı Fəridə xanımla birlikdə həyat yollarında qoşa addımlaması onu daha da təkminləşdirdi, yaş isə yavaş-yavaş öz işini görürüdü,

ağsaqqallığa məcbur etdi. Sevgi, məhəbbət aləmində, qayğılar da bir yandan üst-üstə cəm olmağa başladı. Həyat yoldaşıma, üç övladıma qarşı olan sevgisi, məhəbbəti daha da artdı, yeni-yeni şeirlərin, mövzuların yaranmağa sövq etdi.

1992-ci ildə Qarabağ hadisələri hər bir sahədə bizləri imtahana çəkdi. Vətən də bizləri köçkün elədi. Ağrılarımız, həsrətli günlərimiz birə beş artdı. Doğulub, boya-başa çatdığımız el-obadan didərgin saldı bizləri. İndi o yerlərə baxa-baxa qalmışıq. Onda güvəndiyim vüqarlı, əzəmətli dağlar kimi, uca hesab etdiyim Hüseyn müəllimlə görüşdüm. Bulud kimi dolmuşdu, kövrəlmişdi. Mənə təskinlik verdi, dözümlü olmağı "öyrətdi". Mətbuatda işləməyə istiqamət verdi. Çap olunan ilk qəzetin nömrəsində Hüseyn müəllimin xeyir-duasını vermişdik. "Laçın həsrəti" şeirini də çap etmişdik. Çox xoşuna gəlmişdi. Məsləhətlərini verdi. Mənə Azərbaycan dilinin orfoqrafiyası və qrammatikası kitabını bağışladı. Dedi ki, yazılarında danışıq, ləhcə sözlərindən çox istifadə edirsən. Sözlərin yazılış formasından istifadə edirsən.

Hüseyn Kürdoğlu Azərbaycan ədəbiyyatı tarixində öz dəsti-xəttini həkk edən şəxsiyyətlərdən biri olmuşdur. Uzun müddət, ömrünü sonunadək Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda çalışmışdır. Onun həyatı, yaradıcılığı, elmi axtarışları, tərcümələri tədqiqat mövzusu, möhkəm təməli olan araşdırmaları, ədəbiyyat tarixçiliyi ilə nəzəriyyə bir-birini tamamladığı üçün daha mükəmməl, uzunömürlü əsərlər meydana çıxara bilər. Ədəbiyyatşünaslıq elmimiz bu istiqamətdə düşünüb-daşınmalı, onun adına layiq addımlar atılmalıdır.
Hüseyn Kürdoğlunun yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Yurduma qurbandır sözüm"* adlı **şeir müsabiqəsi** ola bilər. Kitabxanaçı öncə şairin bir

neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. O, ilk olaraq Hüseyn Kürdoğlunun həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından və poeziyasından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.

İlk olaraq kitabxanaçı səhnəyə yaxınlaşaraq Kürdoğlu yaradıcılığı haqqında məlumata keçid alır.

***Kitabxanaçı:***

Mən ki vətən eşqinin çılğın pərvanəsiyəm,
Yanacaq qanadlarım bu sönməz çıraq üstə.

Mən ki sözün-sənətin təşnə divanəsiyəm,
Könlüm od tutub yanar böylə gur bulaq üstə.

Hüseyn Kürdoğlu hər birimizin sevdiyimiz və tez-tez oxuduğumuz söz ustadlarından biridir. Əslində hər bir şairin oxucu ürəyində öz yozumu var. Ədəbiyyatşünasların, tənqidçi və digər qələm sahiblərinin bu şair haqqında müxtəlif məramlı, amma bir məcrada birləşən yazıları çoxdur. Şairin bütün şeirləri vətən, onun təbiəti, dərdləri və sevgisi deməkdir. Hara üz tutmağımızdan asılı olmayaraq, sonda məhz doğma yurda dönmək , onun havasını udmaq istəyirik. Əlimiz çatanda xoşbəxtik, ünümüz yetməyəndə dərdli. Hüseyn Kürdoğlunun şeirləri bax, bu vətənin özü deməkdir. Gözünü yum, amma o misraları dönə-dönə təkrar et, gör xəyalında hansı mənzərələr açılacaq:

Hər gecə bir payız gürşadı gəlir,
Qaçqın el gözünün muradı gəlir.
Viranə dağlarda bayquşdur yuxum,
Xəzər sahilinə fəryadı gəlir.

Həqiqətən də gözəl Xəzərimiz bizi öz camalına nə qədər möhkəm bağlasa da, beşiyin yellənən yerlərinin dadı bir özgədir. İllərdir ki, erməni vandalları tərəfindən öz ocaqlarından didərgin salınan bizlər bu xiffətin, dərdin içində doğma yurda dönəcək yolların həsrətindəyik. Hüseyn Kürdoğlunun şeirlərində bu ağrının çəkilməzliyi var. Bəlkə də elə buna görə belə vəsiyyət edirmiş: “Laçın torpağına qismət olmasam, məni basdırmayın, atın qurd-quşa, kök atıb dünyanı dərdim tutmasın...”
Şairin şeirlərindəki maqnit gücün bir sehri də məhz onun vətən sevgisi ilə birgə doğulmasıdır. Bu dərin məhəbbət onun bütün şeirlərinin mayasında var. Müəllifin poeziyası həyatımızın özüdür. Burada hər şey var. Olum da, ölümdə və bu bir addımlıq ömür yolunda əbədi abidəyə dönmək fədakarlığı da. Bəri başdan filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevə bir minnətdarlıq duyğusunu da bildirim ki, böyük ehtiramla yazdığı “Hüseyn Kürdoğlunun poetik dünyası” adlı kitabında şarin portreti çox dolğun yaradılıb. Azərbaycanda kərkükşünaslığın banisi sayılan professor Qəzənfər Paşayev çoxsaylı elmi əsərlərin, kitabların müəllifidir. Ədəbiyyatşünas alimlər, yazıçı və şairlər barəsində də ayrıca kitablar, monoqrafiyalar yazıb. Müəllifin bu portret kitabları elmiliyi ilə bərabər, səmimiyyəti, dərinliyi və qəhrəmana bəslənən ehtiramı ilə seçilib. Bu səbəbdən, Qəzənfər Paşayevin təqdimatı həmişə inandırıcı olub. Çünki yazdıqlarının hamısını ürəyinin diktəsilə araşdırıb və mükəmməl bir nəticəyə gəlib: "Hüseyn Kürdoğlu təbin, ilhamın, fitri istedadın, el-obaya, vətənə sonsuz məhəbbətin sayəsində əsl poeziya nümunəsi yaradan, Azərbaycan poeziya bağçasında məxsusi yeri olan şairdir.”
Kitaba ön söz yazan AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin münasibəti yeni nəşrin əhəmiyyətini dəyərləndirmək baxımından maraqlıdır: "Tanınmış

ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin " Hüseyn Kürdoğlunun poetik dünyası" adlı monoqrafiyası bu orijinal şairin həyatı və yaradıcılığını bütün əsas mahiyyəti və istiqamətləri ilə geniş oxucu auditoriyasına, ictimaiyyətə təqdim edən qiymətli elmi əsərdir".

Belə bir fikir var ki, şair olmurlar, şair doğulurlar. Hüseyn Kürdoğlunun həyat və yaradıcılığının ilk illərini araşdıran müəllif şairin uşaqlıq çağlarının keçdiyi yerlərin təbii gözəlliklərindən, dağından, dərəsindən, çayından, bulağından söz açaraq, Laçından Bakıya qədər uzanan yolun hansı bərədən, döngədən keçdiyini qələmə alıb. Hüseyn Alışanovun necə Hüseyn Kürdoğlu olduğunu araşdırıb: "Akademik Teymur Bünyadov çox yaxın münasibətdə olduğu şair haqqında yazır: "Hüseyn Kürdoğlu əsilli, nəsilli, köklü-kömәcli, qollu-budaqlı bir türk tayfasının layiqli övladıdır. Gün kimi aydındır ki, ətraf kəndlərdən fərqli olaraq, Mollaəhmədli türk kəndidir. Şairin "Kürdoğlu" təxəllüsünə gəlincə, bu bir xoş təsadüfün nəticəsidir."

Şairin çoxcəhətli yaradıcılığını qədirbilənliklə tədqiq edən müəllif, qəhrəmanının ədəbiyyatşünas, folklorşünas alim və tərcüməçi kimi fəaliyyətini də araşdırıb. Nəticə maraqlıdır: "Hüseyn Kürdoğlu aşıq, klassik şeir ənənələri zəminində formalaşan, əsasən milli heca vəznində yazan təkrarsız şair idi." Onun poetik dünyası təbiətimiz kimi əl-əlvandır: cinaslı və cinassız dördlüklər, cinaslı bayatılar, təcnislər, qoşmalar, gəraylılar, rübailər, ağılar, təsniflər, ithaflar və s. Hüseyn Kürdoğlu Azərbaycan poeziyasında ilk və hələlik yeganə şairdir ki, bayatı janrında poema yazıb. Qəzənfər Paşayev onu "Zəmanəmizin bayatı ustası" adlandıraraq vaxtı ilə unudulmaz alimimiz Tofiq Hacıyevin verdiyi qiyməti də yada salır: "Dördlük tarixində era yaradan şair". "Hüseyn Kürdoğlu yaradıcılığının böyük bir qismini heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən, lirik növün bədii

cəhətdən kamil növü olan, ölməz sənət əsərləri səviyyəsinə yüksələn bayatılara həsr etməklə, həm sınaq meydanında at çapmış, həm də göstərmişdir ki, folklorun qədim növü belə yeni dövrün fikrini ifadə etməkdə münasib formadır”. Hətta bayatını, qoşmanı vaxtı keçmiş hesab edənlərə şairin poetik cavabı da var:

Şeir yaraşıqdır insan oğluna,
Rəsul hümmətinə, Quran oğluna,
Kim deyir köhnədir qoşma, bayatı,
Qoy desin, nə deyim nadan oğluna?

Başqa bir şeirindəki poetik fikirlər həqiqətən də qürur doğurur ki, bizim belə dərin düşüncəli, dünyanın təzadlarından bezməyən, Məmməd Arazın təbirincə desək, köhnə təzəliyin içində yazıb-yaratmış şairlərimiz olub. Torpağımız qədər köhnə, həm də təzə:

Bir dağam başımın qarı təzədir,
Şerimə bal çəkən arı təzədir,
Kökləri uludur, barı təzədir,
Olmasın bir dənə boyatım mənim.

Müəllifin dərindən tanıdığı və mükəmməl araşdırmaları nəticəsində gəldiyi qənaəti ürəyimizdən xəbər verir: "Kürdoğlu poeziyası bir məktəbdir”. Həqiqətən də onu oxuduqca. çox şey öyrənirsən və bəzən də unutduqlarını yada sala bilirsən. Maraqlıdır ki, şair dördlüklərini klassik şeir üslubunda yazsa da, müasir şerimizin çalarları da güclüdür. Klassik janrlara yenilik gətirən Hüseyn Kürdoğlu deyirdi:

Saz tutub, dərdimi saza deyirəm,
Sözü şax deyirəm, üzə deyirəm,
Şerimin əynində öz donumuz var,
Bu donda hər şeyi təzə deyirəm.

Hüseyn Kürdoğlu yaradıcılığının böyük bir qismini də bayatılarla yanaşı, təcnis, gəraylı, rübai, təsnif və ağılar təşkil edir. Bu bədii nümunələrin bir məziyyətini - yəni oxucular tərəfindən sevilməsinin səbəbini də Qəzənfər Paşayev şairin

dilinin canlı, xalq danışıq tərzində və ruhunda olmasında görür. Vətən həsrəti onun bütün yaradıcılığında çox kövrək bir çırpıntıya çevrilib:

Basdırma, torpaq yanmasın,
Oğlum, axıt çaya məni.
Vətən dərdi sönməz olur,
Atarsan dəryaya məni.

Qəzənfər Paşayev şairin arxivini araşdırarkən məlum olub ki, saralmış vərəqlərdə onlarca həcv, satirik və yumoristik şeir öz çapını gözləyir. Hüseyn Kürdoğlu unudulmaqda olan bu janrlarda da mükəmməl nümunələr yaradıb. Kitabdan oxuyuruq ki, şairin həcv və satirik şeirlərində insanı məhv yox, islah etmək bir problemi kimi ortaya qoyulur. Şair özündən razı, özünü öyən adamları ifşa edərək yazırdı: "Qabarmayın köpük kimi, yellənməyin yelpik kimi...” Çünki sonunuz qara qəpiyə dönəcək.

Şairin məhəbbət ünvanlı şeirləri də kədərlə sevincin qol-boyunluğundan yaranıb. Səmimi, təbii və ürəyəyatımlıdır. Qəzənfər Paşayev böyük ehtiramla bildirir ki, şairin bütün məhəbbət şeirlərinin bir baş qəhrəmanı olub: ömür-gün yoldaşı Fəridə xanım. Müəllif bu duyğuların saflığına öz münasibətini belə bildirir: əbədi məhəbbət! Elə bu səmimiyyətin, həqiqi sevginin hökmüdür ki, Hüseyn Kürdoğlunun şeirlərinə neçə-neçə musiqi libası biçilib. İndinin özündə də, müğənnilərimiz böyük şövqlə o mahnıları oxuyurlar:

Mənə əl eyləyib çağırır özü,
Çatılır qaşları, doluxur gözü,
Verdiyi vədəni, dediyi sözü
Yadına salıram, bəyənmir məni.

Kitabda şairin müxtəlif illərdə çəkilmiş fotoları və kitablarının şəkilləri də yer alıb. Yeni nəşrin elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor Şirindil Alışanlıdır. Dünyanın faniliyi barədə Molla Pənah Vaqifdən üzü bəri çox

şairlərimiz maraqlı şeirlər yazıblar. Bu sırada Hüseyn Kürdoğlunun öz baxışı var:
Dünyanın əvvəlcə bəh-bəhi varmış,
Sevda bülbülünün cəh-cəhi varmış,
Axırda hər şeyi əlindən alan
Qocalıq deyilən əbləhi varmış.
Qəzənfər Paşayevin yeni kitabı görkəmli Azərbaycan şairi Hüseyn Kürdoğlu barəsində indiyə qədər qələmə alınmış ən mükəmməl əsərlərdən biridir. Burada həm şairin , həm də müəllifin dilinin şirinliyi, səlisliyi diqqət çəkir. İki qələm üstadının dostluğu məhz belə bir məzmunlu kitabın yaranmasına səbəb olmuşdur.
Kitabxanaçının dəyərli məlumatından sonra iştirakçılar səhnəyə keçid alır.
*Birinci işrirakçı "Qadın" adlı şeirini intonasiya ilə deyir:*

Səndən çörək ətri gəlir, ey pəri,
Təndir istisindən allanıb üzün.
Gülür gözlərində bir yaz səhəri
Çörəyin kimi də dadlıdır sözün.
Gəl öpüm əlini, müqəddəs qadın,
Yaz günəşi kimi ucadır adın.

*İkinci işrirakçı "Bayatı" adlı şeirini intonasiya ilə deyir:*
Bağrımın başı yanar,
Gözümün yaşı yanar.
Eli didərgin dağın
Qayası, daşı yanar.
*Üçüncü işrirakçı "Şuşa" adlı şeirini intonasiya ilə deyir:*
Şuşa yoxuşunun yeddi qat yolu,
Bəlkə elə budur kainat yolu?
Tarixdən soruşsan söylər ki, bu yol
Həm Qırat yoluymuş, həm Bozat yolu.

İblis caynağını atıb dörd yana,
Kəsilib dağların bu həyat yolu.
Dönüb qan yoluna, ölüm yoluna
Dünyaya səs salan müğamat yolu.
Tikanlar bitirir yad ləpirindən,

Min bir yaylağımın öz elat yolu.
Əl çatmaz, ün yetməz yeddi qat yolu.
Şuşa yoxuşunun yeddi qat yolu.
Ey Tanrı, nə zaman açılar bu yol,
Özün imdada yet, özün kömək ol!

*Tədbirin sonunda münsiflər qiraəti ilə fərqlənən iştirakçını mükafatlandırır.*

Kitabxanada Kürdoğlu yaradıcılığını oxuculara çatdırmaq üçün və yazıçının xatirəsini əziz tutmaq məqsədilə şairin öz kitablarının və eləcə də şairdən bəhs edən **kitabların sərgisini** təşkil etmək olar. Sərgi *"Bu dünya bir karvan yolu"* adlana bilər. Kitabxanaçı kitabxanaya gələn oxuculara sözü gedən kitablar haqqında məlumat verir. Sərgidə müxtəlif kitablarla yanaşı dövri mətbuat nümunələri nümayiş olunur. Sərgi ilə maraqlanan oxucuları kitabxanaçı ilk olaraq şair haqqında məlumatlandırır.

Dördlük sarayımı qurub tikəndən,
Ustadla həmdəməm yaxından, gendən.
Ruhumda Kürdoğlu çinarı bitib
Şairi ilk dəfə gördüyüm gündən.

*Əli Rza Xələfli*

1950-60-cı illərdən başlanan və daha çox Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Arazın adı ilə

bağlanan vətəndaşlıq poeziyasının görkəmli nümayəndələrindən biri də Hüseyn Kürdoğludur.
Vətənin ağrılı taleyi onun vətəndaşlıq düşüncəsinin baş xəttidir. Həmin xətt bu günün vətəndaşlıq poeziyasında eynən qalmaqda və aktuallığını saxlamaqdadır. Həqiqi ədəbiyyat ənənə üzərində yüksəlir, ölməzlik qazanır. H.Kürdoğlu sənəti müasir poeziyanın özül daşlarından biri kimi çıxış etməklə bərabər, onun özü və "söz" ü də tərənnüm obyektinə çevrilir. H.Kürdoğlunun özü və "söz"ü çağdaş sənətin böyük "Söz" ünə ona görə çevrilə bilir ki, bu günün sənətkarı onun özündə və "söz" ündə özünü görür: Özünün şəxsiyyət və sənət taleyini, özünün vətən sevgisini, vətəndaş ağrılarını - əzabını görür.
Əli Rza Xələflinin "Bir ayrılıq odu var..." poeması (Bakı, 2018), fikrimizcə, məhz bu ovqatdan doğulmuş bir əsərdir. Şairlə qəhrəmanı arasındakı ruh birliyi Əli Rzanın poetik ilhamını hərəkətə gətirən, onu vulkan kimi püskürməyə sövq edən ən əsas psixoloji amildir. Şairlə qəhrəmanı arasındakı ruh birliyi Vətənin faciəli taleyinə ağrılı münasibətdən doğur. Poemanın "Ağrıların işığında" adlı bədii-fəlsəfi düşüncələrlə açılmasında tam bir qanunauyğunluq vardır. Sənətkarın fəlsəfi düşüncələrində ağrı insanlığı, vətəndaşlığı şərtləndirən meyar səviyyəsində ümumiləşir. Sənətkarın varlığını büsbütün bürüyən ağrı - xüsusən yurd itkisi, itirilmiş torpaqlarımızın çəkilməyən dərdləri ona bu keyfiyyəti çağdaş Azərbaycan insanının insanlığını müəyyənləşdirən meyar kimi müəyyənləşdirməsinə psixoloji əsas yaradır.
"Hər yaşarı ağrının bir kamil ustadı var" deyən sənətkarın poeziyasında təkcə kədər motivinin ifadəsi kimi çıxış etmir, onun poetik mənalandırmalarında "ağrı" sözü polifonik məzmun qazanır, Vətən naminə, doğma yurd, torpaq naminə və eyni zamanda, bəşəriyyətin və insanlığın taleyi ilə bağlı fədakarlıq məzmunu qazanır. Ə.Rzanın poetik "mən"inin ağrısı Vətənə böyük sevgidən doğur.

Poemada “ağrı” obrazı milli poetik düşüncənin etalonu səviyyəsinə qaldırıla, mənalandırıla bilir. “Ağrı” böyük sənətə gedən yolun leytmotivi kimi çıxış edir. Şair ağrıdan doğulan sənətin böyüklüyünə, adını tariximizə yazmış əbədiyaşar sənətkarlarımızın sənət yolunda “ağrı” nın oynadığı rola dərin poetik məna verir:

Ağrıyanı ağrısız çətin duyar, anlayar,
Ağrısız doğulsaydı yaranmazdı Şəhriyar.

Ağrısızlıq eşqinə çox şairlər tor atdı,
Vurğunluğun ağrısı Səməd Vurğun yaratdı.

Bu misralarda böyük sənətə gedən yolun fəlsəfəsi - açarı təqdim olunur. “Ağrısız doğulsaydı yaranmazdı Şəhriyar”, “Vurğunluğun ağrısı Səməd Vurğun yaratdı” misralarını Şəhriyarın və S.Vurğunun keçdiyi həyat və sənət yolunun bədii düşüncə kodu kimi qəbul edir və bu “kod” un intəhasız məzmununda Şəhriyarın və S.Vurğunun həyat və tale yolunun ziqzaqlarını, keşməkeşlərini bütün dolğunluğu ilə görür və təsəvvür edirik. Böyük poeziyaya gedən yol da elə buradan, bu həqiqətin dərkindən başlanır. Ə.R.Xələfli böyük sənət yoluna Nizamini, Nəsimini, Füzulini, Sabiri, Mirzə Cəlili, Bəxtiyarı, S.Vurğunu öz içindən keçirərək, sənət yolunun mayakına çevirərək qədəm basır. Bu yol təkcə sənətin sirlərinin mənimsənilməsi yolu deyil, bu ruh yoludur, amal uğrunda dərisi soyulmağa qədər gedə bilmək əzmidir. Ə.R.Xələflinin varlığı həyatımıza bu “ruh” dan boylanır. Onun poeziyasını bu ruh qanadlandırır. Sələflərinin şəxsiyyət və sənət taleyinin ən yaxşı ənənələrini varlığında və poeziyasında yaşadan H.Kürdoğlunun ömür və sənət yoluna müraciət də buradan qaynaqlanır. H.Kürdoğlu poeziyasının milli tarixi varlığa bağlılığından güc alan ölməzlik ruhu şairi bir ahənrüba kimi öz cazibə dairəsinə salır, onun haqqında

“söz” demək ehtiyacını qaçılmaz edir, “Bir ayrılıq odu var...” poeması yaranır. Və bu poema ona görə yaranır ki,

Hüseyn Kürdoğlu səsi ağrıların başıdı,
Zamandan ağır yükü başı üstə daşıdı.

Bu misralarda ifadə olunan həqiqətin məzmunu nədən ibarətdir? Axı "zamandan ağır yükü başı üstə daşımaq" keyfiyyəti sıradan bir sənətkarın gücü daxilində olan iş deyil. Bunun üçün zamanın fövqünə qalxmaq, zamanla üz-üzə durmaq lazımdır. H.Kürdoğlunun şəxsiyyətində və "söz" ündə belə bir ucalıq vardımı?
Ə.R.Xələflinin "Bir ayrılıq odu var..." kitabı iki hissədən ibarətdir: "Bir ayrılıq odu var..." poeması və H.Kürdoğlunun həyat və sənət yolundan bəhs edən ədəbi-publisistik düşüncələr - esselər. Bu esselərin birində oxuyuruq: "Qarabağın, eləcə də Laçının işğalına dözməyən Hüseyn Kürdoğlu sözü ilə əsl türk ərəni kimi düşmənə qarşı döyüşürdü. Bu döyüş, həm də onun türk soyuna xor baxanlara qarşı çevrilmişdi. Şairin "İstiqlalımız" qəzəli ... od yurdu, milli bayrağı, milli dövləti ilə öyünən, fəxarət duyan sənətkarın vətəndaşlıq himnidir:

Baş qoyub, can qıymışıq, qeyrətdir istiqlalımız,
Qanımızda kükrəmiş qüdrətdir istiqlalımız".

"Qürur qaynağı: sözün etnik yaddaşı" essesində H.Kürdoğlu fenomenini daha əhatəli təqdim məqsədi ilə müəllif fikrində davam edir: "Hüseyn Kürdoğlu isə vuruşur, bu gün də yaşarı poeziyası ilə vuruşur. Sözü ilə yaratdığı Vətən xəritəsini əsgər vətəndaş hünəri ilə qoruyur.
Milli qürur, vətəni ilə fəxr etmək, yurda bağlılıq, eləcə də Laçına sevgi Hüseyn Kürdoğlu poeziyasının baş xəttidir".

H.Kürdoğlunun tale yolu ilə bağlı bu deyilənləri ancaq şair xəyalının məhsulu kimi dərk etmək səmərəli nəticə verməz. Çünki şair xəyalına boy verən Ə.R.Xələflinin həyati müşahidələridir. Və təsadüfi deyil ki, bu ədəbi-publisistik düşüncələr elmi ədəbiyyatşünaslığın gəldiyi qənaətlərlə birmənalı şəkildə təsdiq olunur. H.Kürdoğlu haqqında monoqrafiya müəllifi prof. Q.Paşayev məlumat verir ki, 2014-cü ildə şairin "Özbəkistanda çap olunmuş "Seçilmiş əsərləri"nə yazdığı "Ön söz"də kitabın redaktoru, professor Həmidulla Baltabayev onu "dərdli elin dərdmənd şairi" adlandırmışdır.

Q.Paşayevin monoqrafiyasında bunları da oxuyuruq: "Onun ürək çırpıntılarını, üzüntülərini, dərd-ələmini əks etdirən, ürəklərə od salan şeirlərini oxuyaraq akademik Tofiq Hacıyev bəyan etdi: "Bütün məsuliyyəti ilə deyirəm ki, millətimizin bugünkü böyük dərdindən, Qarabağ faciəsindən heç kəs Hüseyn qədər çox və onunku qədər nüfuzedici yazmayıb. Çünki şair olanlardan heç kəs Laçın və Əhmədli (onun kəndi) yoxluğunu onun kimi əyani yaşamayıb".

Ədəbi-elmi fikrin birmənalı qənaətləri bir daha təsdiq edir ki, H.Kürdoğlu öz həyat və sənət yolu ilə, həyat və sənət yolunun yaratdığı harmoniya ilə xalqımızın ədəbi-tarixi yaddaşında heç vaxt pozulmayacaq izlər buraxıb və elə buna görə də poema qəhrəmanına çevrilmək onun haqqıdır. Təbii ki, Ə.R.Xələfli də ilk növbədə bu haqqın işığında öz sələfini poemasının qəhrəmanına çevirməyin onun sənət "söz"ünü yüksəklərə qaldıracağına inanıb. Çünki bu inam olmadan "Bir ayrılıq odu var..."ı yazmaq mümkün deyil.

Ey ustad, ruhuna tapındım ki, mən
Uçam göylərində əsir yerlərin.

"Bir ayrılıq odu var..." a gedən yol, "Bir ayrılıq odu var..."ın yazılma səbəbi bu misralarda öz aydın ifadəsini tapmışdır.

"Ey ustad, ruhuna tapındım ki, mən" misrası poemanın bioqrafik məzmununu - H.Kürdoğlunun həyat və sənət yolundan bəhs edən bir əsər olduğunu işarələyir. Lakin elə həmin misra və onun ardınca gələn misra poemanın məzmununu üfüqlərə qədər genişləndirir. "Uçam göylərində əsir yerlərin" misrasında şairin baş məqsədinə, poemanın əsas ideya xəttinə aşkar işarə var. Bu işarə əsəri Azərbaycan xalqının torpaq itkiləri, Qarabağ faciəsi və bütün bunlardan doğan ruhi üzüntülərinin bədii əksi kimi dərk etməyə istiqamətləndirir, poemanın vətəndaşlıq pafosunu önə çəkir. Eyni zamanda, müxtəlif xarakterli və tipli bədii təsvir və tərənnüm obyektlərinin daşıdığı missiyaya aydınlıq gətirir. Bununla bərabər isə poemanın kompozisiya sistemini başa düşməyə və təsvirlərin müəllif mövqeyinin ifadəsindəki yerini dərk etməyə açar verir.

Poemanın kompozisiya sistemində Hüseyn Kürdoğlu obrazının yeri birincidir. Əlbəttə, bu birinciliyin özü də şərti qəbul edilməlidir. Çünki bu poemada doğma yurd, Vətən obrazları da öz ağrılı və məşəqqətli tale yolu ilə mükəmməl poetik obrazlar səviyyəsinə qaldırılıb. Yurd, Vətən sevgisinə bələnən, yurd-doğma ocaq ağrısına bürünən vətəndaşınmı obrazı öndədir, yoxsa Vətənin, yoxsa elə bunlar bir-birini tamamlayaraq poemanın kompozisiya sistemində yer alır? Qəti fikir demək çətindir. Ona görə ki, Vətənlə vətəndaş cisim ilə can kimi ruhi vəhdətdə alınır. Sufinin ilahi varlığa can atması, onunla birləşib əbədiyyətə qovuşması kimi, dərviş xəyallı şairin içində də Vətən, yurd sevgisi Allah sevgisi qədər böyüyür, müqəddəsləşir və məhz bu böyüklüyü ilə müasirlərinin gözündə qeyri-adilik, ülvilik məqamı qazanır. H.Kürdoğlu poemada bu ülvilik məqamında təqdim olunur. Həm də təkcə Ə. Xələflinin poetik mənalandırmaları, tərənnüm və vəsfləri ilə yox, müasirlərinin H.Kürdoğlunun özünə və "söz"ünə münasibətini analitik bədii təhlilin

mərkəzinə çəkməklə. Poemanın "Göz yaşı - köz yaşı" adlı hissəsində oxuyuruq:

Ruhumda məclis var - müdriklər bir-bir,
Fikir köhlənini meydana çəkir.

Bu misralar poemanın kompozisiya sisteminə aydınlıq gətirir, poetik sistemi bir bütöv kimi görməyə imkan verir, bədii strukturun mükəmməlliyini şərtləndirir.

Poemanın "Əzəldən əzəl sözüm", "Sözümün əzəli sözüm", "Dədələrdən gələn yol", "Şairin yurduna səyahət" hissələri şairin öz səsidi, H.Kürdoğlu haqqında şairin öz "söz"üdü. "İnsan-Vətən kitabı"nda akademik N.Cəfərovun, "Yurd ağıları"nda professor Q.Kazımovun, "Göz yaşı - köz yaşı"nda müdrik Teymur Dədənin - akademik Teymur Bünyadovun səsini eşidir, sözünü dinləyirik. "Kərkükdən üzü bəri"də professor Q.Paşayev danışır, "Qardaşımdan qalan dünya"da professor Ş.Alışanlının hüznlü qardaş səsini eşidir, "Şair çörəyini yemişəm" deyən oğlu İlham Alışanlının ata həsrətini duyuruq. Müdrik şairimiz Zəlimxanın ruhunun səsi bizi kövrəldir, Zəlimxanlı - Hüseynli dünyanın ziqzaqlarından keçirir, Sahib Abdullayevin, Ağa Laçınlının, Şuşalı Zülfüqarın xatirələr dünyasına baş vururuq. Hər sözdə, hər səsdə, hər xatirədə H.Kürdoğlu dünyası yenidən gözümüz önünə gəlir, bizim üçün indiyə qədər gizli, üstüörtülü qalan nə qədər sirlər açılır. H.Kürdoğlu dünyasının ümmana bənzər genişliyi, okeana bənzər dərinliyi qarşısında mat-məəttəl qalırıq. Təkcə H.Kürdoğlu düşüncəsinin nəhayətsizliyi bizi heyrətləndirmir, təkcə H.Kürdoğlunun "zamanın əsən yellərinə istedad yelkəni ilə qarşı sinə gərmək bacarığı" qarşısında ürəyimiz riqqətə gəlmir, həm də bu nəhayətsiz dünyanın sirlərini yüksək sənətkalıqla açan Ə.R.Xələfli sənətinin ecazları içində qalırıq.

Ə.R.Xələfli bu əsərdə polifonik romana məxsus bədiilik keyfiyyətlərindən sənətkarlıqla bəhrələnir. Poemanın bədii strukturu polifonik roman strukturundan güc alır. Polifonik romanda hər bir obraz əsərə öz ideya yükü ilə daxil olduğu kimi, əsərin obyektiv ideyasının müəyyənləşməsində müəllif mövqeyi ilə bərabər, hər bir obraz öz sözü və "səs"i ilə iştirak etdiyi kimi, bu poemada da müəllif H.Kürdoğlu həqiqətini oxucusuna obyektiv şəkildə təqdim etmək üçün onun müasirlərinin obrazını özünəməxsus ideya yükü ilə əsərin bədii strukturuna daxil edir. Biz poemada H.Kürdoğlunun həyat və sənət mübarizələri haqqında, onun siyasi rejimə qarşı duran həyat və sənət amalı haqqında ancaq müəllif sözü, müəllif mövqeyi ilə yox, həm də kənar "səs"lərin sözü və mövqeyi ilə tanış oluruq.

Poemada H.Kürdoğlunun yuxarıda adları sadalanan müasirlərinin onun həyat və sənət yolu haqqında verdikləri qısa xarakteristikalar bizdə poemanın qəhrəmanı haqqında obyektiv təəssürat formalaşdırır. Əslində, bu üsulla Ə.R.Xələfli H.Kürdoğlunu bizə bütöv cəmiyyətin gözü ilə təqdim edir. Bir-birini təsdiq edən həqiqətlər, bir-birini müxtəlif bucaqlardan tamamlayan həqiqətlər bizim gözlərimiz qarşısında H.Kürdoğlunun "türk qanlı" mübariz şair obrazını pozulmaz cizgilərlə canlandırır. Azərbaycanın ən görkəmli vətəndaş ziyalılarının obrazlarının səsi və sözü bizi bir daha belə bir həqiqətə inandırır ki, "Hüseyn Kürdoğlunun yazdıqlarının; Bir bütöv adı var - "Vətən kitabı". Biz poemadan keçən bir həqiqətə də inanırıq ki:

Hüseyn Kürdoğlunun vətən sevgisi
Gələn nəsillərə örnək yeridi.

Ə.R.Xələfli Hüseyn Kürdoğludanmı Vətən sevgisinə gəlir, yoxsa Vətən sevgisindən Hüseyn Kürdoğluna? Bunu dəqiq müəyyənləşdirmək, qəti hökm vermək çətindir. Çünki nə zaman H.Kürdoğlunun əməllərinin vəsfindən Vətənin

tərənnümünə keçilir, harda H.Kürdoğlunun qan ağlayan qəlbinin iztirabları Vətən, Qarabağ ağrılarının poetik ifadəsini tamamlayır - bunu ayırmaq çətindir. Poetik keçidlər heyrətamiz dərəcədə hiss olunmadan baş verir. Əli Rzanın poetik uğurunun başlıca şərti odur ki, biz harada "Kürdoğlunamə", harada "Qarabağnamə", harada "Vətənnamə" oxuduğumuzu hiss etmirik.
Ə.R.Xələfli "Vətəndən, millətdən, dildən danışan; Sevgi dastanıdır yazdığım əsər" desə də, deməsə də, biz bu bədii həqiqəti bütün varlığımızla hiss edirik, qavrayırıq.

Çəkdim simlər üstə təzanə gəldi,
Kökləndi duyğular tez ana gəldi.
Dilimdə göyərib bitən divani
Simlərə çatmamış təzanə gəldi -

deyərək bizə təqdim etdiyi "Qarabağdı" rədifli divanını biz uşaqlıqda dastan söyləyən aşığın dastanı kimi dinləyir, özümüz də hiss etmədən bu "Qarabağ" dastanının ruhuna köklənirik. Bu dastanı dinləyən zaman içimizdəki yaraların közü qopur, bizi ağrıdır, bizə əzab verir, lakin nə sirri-sehrdisə, biz bu dastanın sona yetməsini istəmirik. Deyəsən, düşünürük ki, dərdlərimizi dərk edir, ağrılarımızı yaşayırıqsa, demək, yaddaşımız təzələnir və bu təzələnmə bizi Qarabağ uğrunda mübarizəyə səfərbər edir. Biz çox şadıq ki, möhtərəm prezidentimizin uzaqgörən siyasəti və qəhrəman ordumuz sayəsində torpaqlarımız düşmən zülmündən artıq azad olunub.

Qürurunun beli sınmış Kəlbəcəri unutmasan,
Ağlar gözlü Zəngilanın yarasını qanatmasan,
Qara bulaq sularına - Köndələnə can atmasan,
Bir Ağdamın gözlərində ağı görsən, Qarabağdı.

"Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək, üç olsun" kimi dastan ənənəsindən məharətlə

bəhrələnən sənətkar xalq şeirinin ən müxtəlif janrlarındakı dördlükləri poemanın bədii strukturuna daxil edir, obrazlı demiş olsaq, bu dördmərtəbəli sarayların harayı ona Azərbaycanın düşmən əlində əsir olan yurd yerlərini bütün etnoqrafik və tarixi cizgiləri ilə bədii düşüncə arsenalına gətirməyə imkan verir:

Əmanətdi Həmzə Sultan sarayı,
Ağoğlan məbədi, Ağoğlan çayı.
Sultan Baba türbəsinə baş əyim,
Hər misra ruhumdan ehtiram payı.

Ə.Rzanın "yaddaş kitabını təzələ"məkdə məqsədi milli mübarizə, mücadilə ruhunu bir daha oyandırmağa, xalqın yurd yeri düşüncəsini öləziməyə qoymamağa, üfürüb alovlandırmağa xidmət edir.

Daşı daş biləni bir naşı gördüm,
Hər daşı qəlbimin sirdaşı gördüm -

deyən Ə.R.Xələfli milli düşüncəyə mücadilə, mübarizə, vuruş toxumları səpir, "bir dəmirçi Gavə" misallı Azərbaycan oğlunu "çarəmiz, ümidimiz, türkümüz Azərbaycan" uğrunda sözün bütün mənalarında savaşa hazırlayır.

Ə.Rzanın Vətən yanğısı vulkan kimi püskürür. Bunun bir səbəbi poetik ilhamının gücünə, bir səbəbi Vətənə sonsuz məhəbbətinə bağlıdırsa, bir və əsas səbəbi onun da H.Kürdoğlu kimi yurd itkisi ilə üz-üzə qalmasıdır. Akademik T.Hacıyev H.Kürdoğlu poeziyasında Qarabağ faciəsinin müəkkəmməl poetik ifadəsini şairin yurd sevgisinin nahəyətsizliyi, yurd itkisinin dözülməzliyi ilə bağlayanda, şübhəsiz ki, böyük və acı həqiqətdən çıxış edirdi. Əslində, bu sözlər, elə poemanın da yazılma və poetik mükəmməllik səbəblərini kodlaşdırır. R.Həmzətovun çox məşhur və ibrətamiz sözləri yada düşür: "Hamı üçün Vətən Moskvadan

başlanır, mənim üçün öz aulumdan". H.Kürdoğlu üçün Vətn Əhmədlidən başlanırdı, Ə.R.Xələfli üçün Xələflidən. Böyük Vətənin simvolu olan Əhmədlinin itkisi H.Kürdoğlunun varlığını necə yandırmışdısa, Xələflisiz keçən dörddə bir əsr də Ə.Rzanın bütün ruhunu sarsıdıb. Deyirlər, dərd adamları birləşdirir. H.Kürdoğlu - Ə.R.Xələfli bağlılığını təkcə ustad - şagird, sələf-xələf münasibətləri tənzimlənir, hər iki şairin ruhu yurd itkisindən keçərək birləşir, onları bir-birinin davamı olan, biri o birini tamamlayan havaları çalmağa kökləyir.

Kitabxanaçı oxucuların diqqətinə daha bir kitabı çatdırdı:

Daşkənddəki "Mumtoz soz" nəşriyyatı Azərbaycan şairi Hüseyn Kürdoğlunun "Seçilmiş şeirlər" kitabını özbək dilində çap edib.

Kitabı orijinaldan ədəbiyyatımızın dostu, şair və tərcüməçi Usman Kuçkar çevirib.

Filologiya elmləri doktoru, professor Xamidulla Boltabaev topluya yazdığı "Ön söz"də şairin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib, onun əsərlərini təhlil edib.

"Ön soz"də deyilir: "Hüseyn Kürdoğlu zaman və millət şairidir. Onun əsərlərinin dili rəvan, şeirləri mənalı və oxunaqlıdır. Buna görə də şairin əsərləri bir sıra dillərə tərcümə edilib".

Kitaba şairin müxtəlif janrlarda yazdığı əsərləri toplanıb.

Xalq ruhunun tərcumanı Hüseyn Kürdoğlu xalq ədəbiyyatını, folıkloru məharətlə mənimsəmiş, zəngin mütailəyə və geniş dünyagörüşə malik ziyalı, ədəbiyyatşünas alim və istedadlı şair idi. O, söz materiasından zərgər dəqiqliyi ilə istifadə edən sənətkar idi. Ümumşərq poeziyasını , klassik və müasir ədəbiyyatımızı dərindən bilən bu insan müxtəlif vəznlərdə, müxtəlif poetik formalarda yaratdığı şeir nümunələrində yetkin sənətkarlığından xəbər verirdi. Axıcı, rəvan dil, özünəməxsus deyim və ifadələr, original obrazlar,

metaforalar onun fərdi üslubunu, bənzərsiz dəsti-xəttini müəyyənləşdirir.

Taleyi dönmüş mənəm,
Ocağı sönmüş mənəm,
Dağıdıblar yuvamı,
Qanadı sınmış mənəm.

Sarı Aşıq bulağından su içən, Dədə Şəmşirlə illər boyu ünsiyyət qurub, dostluq edən Hüseyn Kürdoğlunun xalq ruhundan qaynaqlanan poeziyası oxucu tərəfindən sevilir. Onun şeirlərinin leytmotivini yurddaşlıq, vətəndaşlıq qayəsi təşkil edir.

Qocaldıb gətirdi dərd qışa məni,
Gör saldı nə yaman sərt qışa məni.
Laçın torpağına qismət olmasam,
Pay verin çöllərdə qurd-quşa məni.

Onun poetik örnəkləri çağdaş poeziyamızın dəyərli nümunələri kimi geniş elmi təhlilə cəlb olunmağa layiqdir. Ruhun şad olsun, Hüseyn Kürdoğlu !

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Dövrü mətbuatda**

**Adilgil D.** Hüseyn Kürdoğlunun həmişəyaşar poeziyası // Ədəbiyyat qəzeti. - 2023. - 8 iyul. - № 25. - S. 19.

**Akimova E.** Ömür keçsə də : şair Hüseyn Kürdoğlunun "Ömür keçdi" şeirinin təhlili : 1 şeir/2 rakurs layihəsi // Ədəbiyyat qəzeti. - 2018. - 3 fevral. - № 4. - S. 2.

**Alışanlı Ş.** Dağların mənəviyyat yaddaşı : şair, ədəbiyyatşünas Hüseyn Kürdoğlunun, Laçınla bağlı xatirələri // Ədəbiyyat qəzeti. - 2016. - 21 may. - № 19. - S. 14-15.

**Alışanlı Ş.** Gördüyün mən deyiləm : [Şirindil Alışanlı ilə müsahibə / söhbətləşdi S. Ağabalayeva] : **Hüseyn Kürdoğlu** - 80 // Azərbaycan. - 2014. - № 8. - S. 162-170.

**Baltabayev H.** Dərdli elin dərdmənd şairi : Hüseyn Kürdoğlu və Özbəkistan ədəbi mühiti // Ədəbiyyat qəzeti. - 2014. - 31 oktyabr. - № 42. - S. 4.

**Cəmil A.** Sözün siqləti, qaynağın əsilliyi : Hüseyn Kürdoğlu - 75 // Ədəbiyyat qəzeti. - 2009. - 21 avqust. - N 32. - S. 4.

**Elçin.** Mənim bu dünyaya qaynamaz qanım... // 525-ci qəzet. - 2023. - 24 yanvar. - № 12. - S. 11.

**Ələkbərli M.** Görünən dağa nə bələdçi yaxud duruluq, saflıq poeziyası : şair Hüseyn Kürdoğlunun "Ömür keçdi"

şeirinin təhlili : 1 şeir/2 rakurs layihəsi // Ədəbiyyat qəzeti. - 2018. - 3 fevral. - № 4. - S. 2-3.

**Ələkbərli M.** Ruh qohumumla söhbət : Hüseyn Kürdoğlu ilə söhbət // Mədəni Maarif. - 2010. - N 5. - S. 52-56.

**Hacıyev T.** Hüseynin dərdi yaxud qəm şeri : Hüseyn Kürdoğlu // Ədəbiyyat qəzeti. - 2007. - 5 oktyabr. - S.3-5.

**Hacıyev T.** Onun şeir dili möcüzəydi... : Hüseyn Kürdoğlu haqqında // Respublika. - 2011. - 21 sentyabr. - № 201. - S. 7.

**Həbibbəyli İ.** Ədəbiyyatşünaslıqda faydalı örnək : professor Qəzənfər Paşayevin "Hüseyn Kürdoğlunun poetik dünyası" monoqrafiyası // Ədəbiyyat qəzeti. - 2017. - 28 yanvar. - № 3. - S. 8-9.

**Xəlilzadə F.** Dərd içində ada : Yazıçı şair Hüseyn Kürdoğlu haqqında // Kaspi. - 2012. - 9-11 iyun. - № 332. - S. 19.

**Xəlilzadə F.** Dilin şirinliyi, şeirin dərinliyi : [Qəzənfər Paşayevin "Hüseyn Kürdoğlunun poetik dünyası" adlı kitabı şairin həyat və yaradıcılığını ictimaiyyətə təqdim edən qiymətli elmi əsərdir] // Kaspi. - 2017. - 19 aprel. - № 67. - S. 7.

**Kazımoğlu F.** Vaxtında çıxan kitab haqqında gecikmiş yazı : şair Hüseyn Kürdoğlu haqqında // Ulduz. - 2010. - N 10. - S. 41-44.

**Qarayev Y.** Hüseyn Kürdoğluna : şeir : retro (sələflər) // Ədəbiyyat qəzeti. - 2018. - 14 iyul. - № 27. - S. 19.

**Qarayeva G.** Vətəndə vətən gəzən şair : Hüseyn Kürdoğlu - 80 // Azərbaycan. - 2014. - № 8. - S. 158-161.

**Nəcəfzadə Q.** Mənim ilk kitabım : [şair Hüseyn Kürdoğlunun "Qaya çiçəkləri" kitabı] // Azərbaycan : jurnal. - 2017. - № 5. - S. 126-129.

**Paşayev Q.** Hüseyn Kürdoğlunun poetik dünyası : tənqid və ədəbiyyatşünaslıq // Azərbaycan : jurnal. - 2015. - № 4. - S. 174-183.

**Paşayev Q.** "Sağalmaz yarası ilk məhəbbətin" : şair Hüseyn Kürdoğlunun yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 30 yanvar. - № 6/7. - S. 27.

**Tapdıq İ.** Əsl insan olmaq dərdi : Hüseyn Kürdoğlu - 75 // Ulduz. - 2009. - № 12. - S. 39-41.

**Yusifoğlu R.** Ruhu dağların başına dolana şair : Hüseyn Kürdoğlu – 80 // Ədəbiyyat qəzeti. - 2014. - 20 iyun. - № 23. - S. 10.

# Sözün-sənətin təşnəsi –Kürdoğlu

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**